*V.Hüseynzadə. 1991-2011-ci illər bədii nəsrində istiqlal məfkurəsi // Əlyazmalar yanmır. 2021, №2(13), s.71-78.*

UOT: 82-3.512.162

**Vəfa Hüseynzadə**
*AMEA Hüseyn Cavidin ev muzeyi*
*Bakı ş. İstiqlaliyyət küç.26.*
*e-mail: vefa-heydarqizi@mail.ru*

# 1991-2011-Cİ İLLƏR BƏDİİ NƏSRİNDƏ İSTİQLAL MƏFKURƏSİ

**Xülasə**

*Məqalədə Azərbaycan ədəbiyyatının iyirimi illik dövrdə, 1991-2011-ci illərdə qələmə alınmış nəsr nümunələrində milli istiqlal ideyalarının qoyuluşuna nəzər salınır, sistemli şəkildə araşdırılır.*

*Müasir Azərbaycan ədəbiyyatı ötən əsrin 90-cı illərində böhran keçirsə də, cəmiyyətdə öz baxışlarını ifadə etməyə, milli istiqlal ideyalarını işıqlandırmağa çalışırdı. Uzun illər sovet ideoloji ideyalarının aşılanması tarixi həqiqətlərin saxtalaşdırılması ilə nəticələndi. Müasir Azərbaycan ədəbiyyatını araşdırarkən şahidi olduq ki, müstəqilliyimizin ilk onilliyində ölkəmizin dövri mətbuatında və ədəbi-bədii jurnallarda bu mövzuda əsərlər yazılmış, hadisələrə münasibət bildirilmişdir. Lakin müstəqilliyimizin ikinci onilliyi haqqında eyni şeyi demək çətindir. Bu mərhələdə müstəqillik mövzusunda yazılmış ədəbi əsərlər çox azdır. Məhz bu baxımdan müasir Azərbaycan ədəbiyyatını şərti olaraq iki mərhələyə bölmək olar:*

*1) 1990-cı illər*

*2) 2000-ci illər*

*Bədii nəsrdə xalq, millət, dövlət üçün aktual mövzular mövcuddur, Qarabağ müharibəsi də belə mövzulardandır. Müharibə və onun nəticələri, yaratdığı çətinliklər 2000-ci illərdə ədəbiyyatında, o cümlədən hekayə, roman və romantik janrının tez-tez müraciət etdiyi mövzulardan biri olmuşdur. Tarixi gerçəkliyin epik poeziyada bədii ifadəsi, xüsusən də romanlarda vətən, millət, milli dövlətçilik ideyalarının yeni konfiqurasiyada təsbit edilməsi məsələsi çox mühümdür.*

***Açar sözlər:*** *ədəbiyyat, milli istiqlal, hekayə, povest, roman, tarix*

## Giriş

Ədəbiyyatımızın, mədəniyyətimizin və bütövlükdə inkişaf tariximizin yeni konsepsiyasını şərtləndirən əsas amil onu milli dəyərlər əsasında obyektiv tarixilik mövqeyindən dərk və şərh etməkdir. XX əsr müxtəlif siyasi hadisələrin bolluğu və zənginliyi ilə seçilən, bəzən də birmənalı qəbul edilməyən fikir və düşüncələrin toqquşduğu bir dövr kimi xarakterizə olunur. Bu mənada ədəbi hadisə kimi daha çox diqqəti cəlb edən müstəqillikdən sonra yaranan nəsr əsərlərində istiqlal məfkurəsinin bədii ifadəsində milli-mənəvi dəyərlərin önə çəkilməsinin araşdırılması düşünürük ki, ədəbiyyatşünaslığımızın qarşısında duran

vəzifələrdəndir. Uzun müddət qapalı qalan, sovet dönəmində çox zaman qəsdən unutdurulan, ən yaxşı halda belə adı ehtiyatla çəkilən milli-mənəvi dəyərlər müstəqillikdən sonra ədəbi prosesdə əsas yer tutmağa və möhkəmlənməyə başladı.

Azərbaycan xalqının əsrlərdən bəri arzuladığı və yolunda qurbanlar verdiyi milli istiqlalın əldə edilməsi xalqımız və ədəbiyyatımız üçün də siyasi imkan və şərait yaratdı. Bunun nəticəsində mədəni-mənəvi dəyərlərə yeni baxış bucağından nəzər salmaq, hər cür ideoloji təsir və basqılardan uzaq yanaşma mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan müstəqilliyini elan etdiyi ilk ildən, yəni 1991-ci ildən etibarən sonrakı iyirmi il ərzində qələmə alınmış bədii nəsr nümunələrini ən azından janr olaraq hekayə, povest və romanlar çərçivəsində araşdırılmağa ehtiyac var. Milli dövlətçilik, vətən, xalq taleyinə münasibət məsələsinin yeni biçimdə qoyuluşu tarixi-müqayisəli kontekstdə nəzərdən keçirilərək ədəbiyyatın milli ideologiyanın formalaşmasındakı rolunu öyrənmək çox əhəmiyyətlidir. Çağdaş Azərbaycan ədəbiyyatının gərgin, sosial-siyasi, ədəbi –bədii qalxıb-enmələrlə zəngin dövründən, milli özünüdərk prosesi ilə yaranan yeni düşüncəli, yeni məzmunlu nümunələri bunu tələb edir. Bəzi yazıları və məqalələri istisna etməklə kompleks şəkildə bu mövzuya konkret tədqiqatlar həsr olunmamışdır. Yalnız ayrı-ayrı yazıçıların yaradıcılıqları haqqında yazılmış bəzi ədəbi tənqidi məqalələrdə mövzuya toxunulmuşdur. Ona görə də bu mövzuya müraciət ədəbiyyatşünaslığımız üçün zəruridir.

Bədii əsərin surətlər baxımından zənginliyi əsərin məzmunundan asılı olaraq əks olunduğu janrın forma xüsusiyyətləri ilə bağlıdır. Daha dəqiq desək irihəcmli əsərlər süjet müxtəlifliyinə, obrazlar aləminin zənginliyinə görə diqqət cəlb edir. Lakin bu o demək deyil ki, ciddi problemlər ictimai-siyasi əhəmiyyətli məsələlər yalnız irihəcmli əsərlərdə qaldırılır və bədii həllini tapır. Bəzən çox kiçik əhvalatların hüdudları fonunda cəmiyyəti, xalqı narahat edən, tale əhəmiyyətli məsələlər də işıqlandırıla bilir.

Milləti daimi istiqamətverici qüvvə kimi yönləndirən ədəbiyyat xalqın istiqlal istəyini, azadlıq ruhunu daha da alovlandıran körük rolunu oynayır. Bu körüyün qolları istiqlaliyyət ruhlu kitablarda yerləşmiş, vərəqlərə toxunan hər kəsi aydınlatmış və onda olan közərtiləri daha da işıqlandırmışdır. Lakin Azərbaycanın ədəbi ictimai fikrində milli azadlıq məfkurəsi sistemli şəkildə deyil, xaotik formada özünü göstərirdi. Sözünü demiş qələm sahibləri ilə yanaşı, ədəbiyyata yenicə gələn yazıçıların əsərlərində məfkurə savaşına hazırlığı görmək mümükündür. Bu əsərlərin hər biri kiçik də olsa, tariximizin müəyyən səhifəsini özündə əks etdirir, müstəqilliyin ilk on ilinə nəzər yetirərkən yaranan ictimai – siyasi böhranın ədəbiyyata da təsirini görürük. Müstəqilliyin ilk beş ilinə nəzər yetirərkən ədəbi hadisə sayılacaq əsərlə rastlaşmırıq. İlk illər ədəbi dərgilər sırf milli ideologiyaya söykənərək kütləvi maariflənməyə, bu ideal uğrunda mübarizəyə səsləyir. Dövrün dərgilərində "Müstəqilliyin şirin xülyası" (Anar), "Xalqın nicatı və ədəbiyyat", "Yeni təfəkkür, yeni baxış" (C.Məmmədli), "...Millət hər şeydən əvvəl özünü bilməlidir..." (Mirzəbala), "İstiqlal mübarizəsi tarixindən" (Ş.Novruz), "Özünüdərk üçün" (M.Fərhadoğlu), "Azadlıq carçısı" (Ş.Zaman), "Əvvəl sözlər azadlığını itirir, sonra adamlar" (Y.Qarayev) və s. kimi başlıqlı yazılara tez-tez rast gəlirik. Lakin dövrün ictimai-siyasi ab-havasını əks etdirməyə çalışan, ədəbiyyyatı ətalətdən qurtaran poeziyaya dəstək üçün tək-tük nəsr nümunələri yarandı. Həmin bədii mətnlər hekayə janrında təqdim olunaraq oxucunun öhdəsinə buraxılırdı. Sabir Əhmədlinin "Yanvar hekayələri" (1990-1991), İsmayıl Sıxlının "Qətl" (1991), Fəxri Uğurlunun "Yol içində kötüklər" (1991), Əli Səmədlinin "Barışıq olmayacaq", "Qara bulud", İlyas Əfəndiyevin "Qaçaq Süleymanın ölümü" (1993), Mehriban Vəzirin "Üçünçü ildönüm" (1995), Ağarəhim Rəhimovun "Canavar balası" (1996) və başqa hekayələri ədəbiyyatda solmuş, qurumuş ağacın təkəm-seyrək pöhrələri kimi boy qaldırır. Haqlı olaraq Tehran Əlişanoğlu yazır: "Artıq 1997-ci il ədəbi

prosesdə " dönüş ili kimi nəzərə çarpır. Təkcə onunla yox ki, örnəklərlə daha zəngindir. Hər şeydən əvvəl onunla ki, ədəbiyyat cari həyatına qayıdır. Yeni tarixi şəraiti stixik olaraq yox, artıq bütöv mexanizmi ilə şüurlu şəkildə yaşamağa həzm etməyə imkan yaranır. Məhz bu il istisnasız olaraq bütün yazarlarımızın yaradıcılığında ciddi fəallıq müşahidə olunur, həm də yeni əsərlərlə yox, sanki ötmüş illərdə münasibəti dəqiqləşdirən "əlyazmaları" qovluqdan çıxır. Təsadüfi deyil ki, ilin sonunda Azərbaycan yazıçısı növbəti qurultayını çağırıb, keçmiş yola nəzər salmağa, o cümlədən nəsr materialları əsasında ədəbiyyatın durumunu qiymətləndirməyə cəhd edirlər". (61, 43) Dövrün ədəbi mətbu səhifələrini izləsək, baş verən ictimai-siyasi proseslərə münasibət göstərmək baxımından hekayə janrı digər ədəbi növ və janrlara nisbətdə çevik, ədəbiyyatımızı izləyici mövqeyindən çıxarıb, onun susqunluğunu pozub, birbaşa iştirakçısına çevirdi. "1997-ci ilin bədii prosesi xüsusən hekayə "bum"u ilə səciyyəvidir; təbii ki, yeni həyat materialını nəsr yenə də ilk əvvəl yığcam janr səriştəsilə cızmağa cəhd edir" (61, 44).

Bəhs olunan zaman kəsimi Azərbaycan ədəbiyyatına yeni müşahidə və axtarışlar, kəmiyyət və keyfiyyət dəyişmələri, tarixə, milli-mənəvi kökə dönüm dövrü kimi xarakterizə edilir. Sözün həqiqi mənasında bu dövrdə söz, fikir azadlığı yarandı. Ədəbiyyat bu imkanlardan bacardıqca istifadə etməyə başladı. Lakin yaradılan imkanlar ədəbiyyata uğurlarla yanaşı naqisliklər də gətirdi. Hər yerindən duran "mən də ədəbiyyatın nümayəndəsiyəm" deyə meydanda at oynatmağa başladı. Şəxsi vəsaitləri hesabına mətbu orqanların səhifələrində görünür, kitab çap etdirdilər. Kəmiyyət keyfiyyəti üstələyəndə o zaman hər şey xaosa çevrilir. Ədəbi xəlbirdən keçə bilməyən bədii nümunələr tədricən ədəbiyyatdan kənarlaşdırılır.

Demokratik düşüncələr genişləndikcə uzun zaman ərzində unutdurulmağa çalışılan, ən yaxşı halda üstüörtülü adı çəkilən, milli- mənəvi dəyərlərə maraq artır. Nəticədə ədəbi prosesdə yeni, əslində isə yeni olmayan unutdurulan mövzular ortaya qoyulur. Zamanın tələbi ilə "istiqlaliyyət uğrunda mübarizə", "Qarabağ müharibəsi" vətənpərvərlik mövzuları prioritet idi. Bu tək ədəbiyyatın deyil, eyni zamanda dövrün, oxucu kütləsinin tələbi idi. Belə bir zamanda yazarlar vətəndaşlıq mövqeyindən çıxış edərək, yeni ədəbi mərhələlərin formalaşmasında mühüm rol oynadılar. Sabir Əhmədli, Elçin, Anar, Mövlud süleymanlı, E.Hüseynbəyli, Aslan Quliyev, Mübariz Cəfərli, Ramiz Heydər, Bahar Bərdəli, Mehriban Vəzir, Azad Qaradərəli və s. yazarların uğurlu əsərləri meydana gəldi.

Sovet ədəbiyyatından fərqli olaraq ədəbiyyatımızın müstəqillikdən sonrakı dövrünün məramı, məqsədi tamamilə başqa istiqamətdə dəyişir. Uzun illər imperiya boyunduruğu altında əzilən, öz torpağında kimlərinsə diktəsi altında yaşamaq insanlara ağır gəlməyə başlamış, vətənini azad görmək istəyən hər bir söz adamı müstəqilliyin ilk illərindən başlayaraq ürəklərində yığılıb qalan fikirləri yazıya aldılar.

Çağdaş Azərbaycan ədəbiyyatında milli istiqlalın bədii inikasına mövzu-problematika yönündən nəzər saldıqda bir çox amillərin kompleks şəkildə iştirak etdiyini nəzərə alaraq, mövzunun sanbalını artıran ziyalıların böyük fədakarlığını, elmi, bədii, publisistik nailiyyətlərini təqdim etmiş oluruq. Milli istiqlal mövzu problematikası 80-ci illərin sonlarından başlayaraq elmi fikri davamlı məşğul edən mövzular kompleksidir. Mövzunun əhəmiyyətini araşdırmaq üçün beyinlərdə yaranan bu fikrin səbəbini tədqiq etmək lazım gəlir. XX əsr tariximizdə nəzər yetirərkən ictimai şüurun formalaşmasında, inkişafında xüsusi əməyi olan sənətkarlarımızı, aydınlarımızı xüsusi qeyd etməsək qəbahət olardı. C.Məmmədquluzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.Cavad, sovet ideologiyasının nəfəs aldırmağa imkan vermədiyi 1920-50-ci illərdə M.S.Ordubadinin, C.Cabbarlının, S.Vurğunun, M.İbrahimovun, R.Rzanın, S.Rüstəmin və b. yaradıcılığı diqqətlə tədqiq olunarkən, rejimin ciddiliyinə, cızdığı sədlərin sərtliyinə baxmayaraq sənətkarların

milli mənliyə sədaqətini görmək olar. Sovet dövrünün 60-cı illər mərhələsi, milli özünüdərkdə, millim oyanışda intibah dövrü kimi də dəyərləndirilir. İ.Şıxlının, İ.Muğannanın, F.Kərimzadənin, Ə.Məmmədxanlının, Anarın, Elçinin, S.Əhmədlinin, Ə.Əylislinin, İ.Məlikzadənin və başqa nasirlərin əsərlərinin tədqiqi azadlıq, müstəqillik uğrunda mübarizə, milli-ictimai təfəkkürün yeniləşməsi üçün zəmin rolunu oynadığı qənaətini möhkəmləndirir. 90-cı ilin əvvəllərindən başlayaraq Azərbaycanda gedən İctimai-siyasi dəyişikliklər bunu bir daha sübut etdi.

Milli müstəqilliyi müdafiə edən şəxs və təşkilatlar ciddi şəkildə cəzalandırıldı. Xalq əsarətə qarşı çıxır, onunla barışmaq istəmirdi. Bu səbəbdən də xalq üsyana qalxırdı. Bu üsyanlarda saysız-hesabsız insan iştirak edirdi. Baş qaldırmış üsyanları, mitinqləri yatırmaq üçün çox saylı hərbi qüvvə yeritmək qənaətinə gəlindi. Nəticəsi isə 1990-ci il 20 yanvar faciəsi oldu. Hadisəni faciə adlandırsaq da, bu müstəqilliyə, istiqlala gedən yola mayak oldu. Belə bir hadisə hakim orqanların dilini qısaltsa da, bildiklərindən əl çəkmədilər. 30-cu illərdə olduğu kimi yenə də xalqın düşünən beyinlərini aradan çıxartmağa, məhv etməyə çalışdılar. Onların arasında çox sayda ədəbiyyat, söz adamları var idi. Tarixin bütün mərhələlərində olduğu kimi bu dövrdə də ədəbiyyat yenə öz sözünü deyərək yatmış kütləni oyanmağa vadar edirdi.

Müstəqillik dövründə Azərbaycan elmi fikrində, eləcə də ədəbiyyatşünaslıqda milli istiqlal mövzusunda tədqiqat işi ayrı-ayrı ədəbi şəxslərin yaradıcılığı əsasında işlənmişdir. Bu mövzuya müraciət daha çox poeziya sahəsində olmuşdur məsələn, Yavuz Axundlunun “İstiqlal şairləri”, Yaşar Rzayevin “Milli azadlıq şüurunun formalaşmasında Azərbaycan ədəbiyyatının rolu” (Müstəqilliyə qədərki dövr), Almaz Binnətovanın “Demokratiya və milli müstəqillik uğrunda mübarizənin poeziyada əksi” (1985-1992), Elnarə Bəşirovanın “Azərbaycan mühacirət ədəbiyyatında milli istiqlal mövzusu” (Almas İldırım yaradıcılığı), Göyərçin Mustafayevanın “Ə.Cavad yaradıcılığında milli istiqlal problemi”, Əlizadə Əsgərlinin “XX əsr Azərbaycan ədəbi-nəzəri fikrində milli ideal və xalq taleyi problemi” (X.R.Ulutürkün yaradıcılığı əsasında) və s. kimi tədqiqat işlərinin siyahısını uzatmaq olar. Mənzərədəki nəsr boşluğu aydın göründüyündən, tədqiqatımızı bu istiqamətdə aparmağımızı labüd hesab etdik.

Çağdaş ədəbiyyatda milli istiqlal ideyalarının inikas səviyyəsini müəyyən etmək üçün səciyyəvi olan şəraiti, dövrün xüsusiyyətlərini aydınlaşdırmaq lazımdır. Milli demokratik ruha və istiqlal məfkürəsinə bağlılığın köklərini araşdıraraq, yeni yaranan ədəbi nümunələri təhlilə cəlb edib, onların əhəmiyyəti müəyyənləşdirilməlidir. Dövrün ədəbi nümunələri istiqlal tarixinin yaranmasında əvəzsiz rol oynayır. İstiqlal tarixi millətin millət kimi varlığının sübutudur. İstiqlal tarixi olmayan millət ölümə məhkumdur. Çünki bu tarixi yazmaq üçün məhz xalqın, millətin qanı mürəkkəb rolunu oynayır.

1991-2011-ci illərdə yaranan Azərbaycan bədii nümunələri istər mövzu-problematika, istərsə də janr-üslub baxımından bir sıra poetik çalarlarla zənginləşmişdir. Bütövlükdə bu dövr bədii nəsrin, o cümlədən hekayə, povest və roman janrının mövzu, problem və ideya-estetik keyfiyyətlər əldə etməsi, mahiyyətcə yeniləşməsi, ictimai-siyasi motivlərin güclənməsi ilə səciyyələnir.

Ədəbiyyatımızın tarixi yalnız söz sənəti tarixi deyil, bəlkə də daha çox fəlsəfi estetik dünyagörüşü, ictimai-siyasi mübarizə, insanların həyata münasibəti tarixidir. Bu mənada ədəbi hadisə kimi daha çox diqqəti cəlb edən müstəqillikdən sonra yaranan əsərlərində istiqlal məfkurəsinin bədii ifadəsində milli-mənəvi dəyərlərin önə çəkilməsinin araşdırılması düşünürük ki, ədəbiyyatşünaslığımızın qarşısında duran ən ümdə vəzifələrdəndir. Təqdim etdiyimiz elmi işdə məhz bu məsələ diqqət mərkəzində saxlanılmışdır. Uzun müddət qapalı qalan, sovet dönəmində çox zaman qəsdən unutdurulan, ən yaxşı halda belə adı ehtiyatla

çəkilən milli-mənəvi dəyərlər müstəqillikdən sonra ədəbi prosesdə əsas yer tutmağa və möhkəmlənməyə başladı. Bu baxımdan dissertasiya, nəsrimizin həm də ideoloji cəhətdən obyektiv qiymətləndirilməsində əsasl rol oynaya bilər.

Müstəqilliyin ilk 20 ilində yaranan S.Əhmədlinin "Yanvar hekayələri", İ.Sıxlının "Qətl", Ə.Səmədlinin "Barışıq olmayacaq", "Qara bulud", İ.Əfəndiyevin "Qaçaq Süleymanın ölümü", M.Vəzir "Üçünçü ildönüm", F.Uğurlu "Yol içində kötüklər", A.Rəhimov "Canavar balası", Q.İlkinin "Qatil", Elçinin "Qaçqınlar" silsilə hekayələri, Aydın Tağıyevin "Körpü", "100 ABŞ dolları", A.Abdullanın "Məğlub ölkənin oğulları" silsilə hekayələri, M.Abdullanın "Mininci qadın", E.Hüseynbəylinin "Ağ qara" kitabında toplanmış bəzi hekayələr, H.Mirələmovun "Vicdanın cəzası", Ş.Ağayarın "Laçınsız ilk gün" və başqa hekayələri, İ.Məlikzadənin "Qırmızı şeytan", V.Babanlı "Ana intiqamı", F.Qocanın "Hələlik, qiyamətəcən", Anarın "Ağ qoç, qara qoç", Ə.Cəfərzadənin "Bəla", Ə.Nicatın "Rza xan", Elçinin "Bayraqdar", Z.Qarayevin "Kürü keçdilər", E.Hüseynbəylinin "Qurdun şərqisi", "Əsirlər", M.Çəmənlinin "Ruhların üsyanı", F.Qocanın "Qarlı, qanlı qərənfillər", H.Mirələmovun "Xəcalət", H.Mirələmovun "Dağlarda atılan güllə", A.Quliyevin "Sonuncu", Əlabbasın "Qaraqovaq çölləri", A.Abbasın "Dolu", S.Əhmədlinin "Axirət sevdası", M.Süleymanlının "Erməni adındakı hərflər", E.Mehrəliyevin "90-cı illər", M.Bəkirlinin "Kəlbəcər ağrısı", Ə.Əmirlinin "Ölü doğan şəhər", H.Mirələmovun "Sonuncu fateh", S.Rüstəmxanlının "Difai fədailəri", Ə.Nicatın "İblislər və mələklər" romanları istiqlal məfkurəsinin bədii ifadəsi, milli-mənəvi dəyərlərin önə çəkilməsini müxtəlif aspektlərdən diqqəti cəlb edir.

Bütövlükdə bəhs olunan dövrün nəsrini aşağıdakı şəkildə səciyyələndirmək mümkündür:

1) 1991-2011-ci illərdə yaranmış Müasir Azərbaycan nəsrində milli istiqlal məsələsinin qoyuluşu qalxan xətt üzrə inkişaf edir. Bəhs olunan zaman kəsimi Azərbaycan ədəbiyyatına yeni müşahidə və axtarışlar, kəmiyyət və keyfiyyət dəyişmələri, tarixə, milli-mənəvi kökə dönüm dövrü kimi xarakterizə edilir. Sözün həqiqi mənasında bu dövrdə söz, fikir azadlığı yarandı. Ədəbiyyat bu imkanlardan bacardıqca istifadə etməyə başlayır. Lakin yaradılan imkanlar ədəbiyyata uğurlarla yanaşı naqisliklər də gətirdi. Müstəqillik illərində yaranan Azərbaycan hekayəsi dövrün mənzərəsini ilk və adekvat olaraq əks etdirirdi. Araşdırmaya cəlb olunan əsərlər onu göstərir ki, cəmiyyət üçün, dövlətçilik üçün ən mühüm məsələlərdən olan istiqlal və onun bədii həllinin çözülməsinə çalışılmışdır.

2) Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycanda gedən ictimai-siyasi dəyişikliklərdə bədii ədəbiyyatın yeri və rolu araşdırılarkən belə bir qənaət bir daha təsdiqini tapır ki, baş verən mürəkkəb, ictimai-siyasi prosesləri Azərbaycan ədəbiyyatı da yaşamışdır. İstiqlal mövzusu dövrün əksər qələm sahibləri, söz ustalarını birləşdirən yeganə mövzudur. Qarabağ mövzusu ədəbiyyatımızın bütün nümayəndələrini millətimizə qarşı yönəldilmiş haqsızlıqlara fəal vətəndaşlıq mövqeyindən birləşdirir. Forma struktur baxımından mövzu 90-cı illərlə müqayisədə mövqeyini nəinki itirmək, əsərdən əsərə, müəllifdən müəllifə keçdikcə inkişafın, keyfiyyətin kəmiyyəti üstələdiyi müəyyənləşdirilir. Nasirlərdən S.Əhmədli, Anar, Elçin, O.Fikrətoğlu, F.Mustafa, E.Hüseynbəyli, A.Abdulla, M.Vəzir və b-nın hekayə yaradıcılıqlarında müharibə insanının, məişəti, psixologiyası, ümümilikdə müharibə həqiqətinin nə dərəcədə bədii həqiqətə çevrilməsi diqqət mərkəzində saxlanılır. Tədqiqata cəlb etdiyimiz dövrə nəzər yetirərkən görərik ki, çağdaş ədəbiyyatda müharibə mövzusu 2000-ci illərə nisbətən 90-cı illərdə daha az işlənmişdir. Müharibə gedən bir ölkədə hadisələrin isti-isti qələmə alınmamasının özünəməxsus səbəbləri vardır. Belə ki, hadisələri yazıçı gözü ilə izləyən sənətkarlar bəlkə də yekun nəticəni gözləyirdilər. Lakin müharibə şəraitinin uzandığını, nəticəsizliyini görüb hadisələrə biganə qala da bilmirdilər. Yaratdıqları əsərlərdə müharibənin ayrı-ayrı məqamlarını əks etdirməyə çalışırdılar.

3) Çağdaş Azərbaycan hekayəsi istiqlaliyyət uğrunda mübarizənin bədii əksini verən ən çevik janr kimi görürük. Çağdaş ədəbiyyatda milli istiqlal ideyalarının inikas səviyyəsini müəyyən etmək üçün səciyyəvi olan şəraiti, dövrün xüsusiyyətlərini aydınlaşdırmaq lazımdır. Milli demokratik ruha və istiqlal məfkurəsinə bağlılığın köklərini araşdıraraq, yeni yaranan ədəbi nümunələri təhlilə cəlb edib, onların əhəmiyyəti müəyyənləşdirilməlidir. Hələ sovet dövründə Azərbaycanın istiqlala doğru irəliləməsi yaranan ədəbi bədii nümunələrdə inikasını tapmışdır. Gələcəkdə yaranan yeni epoxanın mesajı açıq aydın şəkildə əks etdirilirdi. Sonrakı dövrdə, müstəqillik uğrunda mübarizədə də məhz ədəbi nəsil birbaşa fəal iştirak edir.

4) Müstəqilliyin ilk illərindən etibarən yaranan hər bir nümunədə milli ruh, milli çalar sezilməyə başlandı. Bu illərdə yaradılan bir çox povest örnəklərində milli özünüdərk, vətənpərvərlik , gələcəyə inam motivləri geniş yer tutur. Yaradıcı nəslin yaradıcılıq üslubları, fəlsəfi görüşləri, ictimai-siyasi görüşləri müxtəlif olsa da, nəticə etibarilə bir məqsədə xidmət edirdi: demokratik, milli-ictimai şüurun təşəkkülünə nail olmaq.

5) Azərbaycan müstəqillik aktına imza atdıqdan sonra ədəbiyyatımızda demokratik proseslərin öz bədii həllini tapması ədəbi prosesdə zərurətə çevrilmişdir. Roman janrının imkanları daha geniş olduğundan dövrün ictimai-siyasi problemlərini daha ətraflı işıqlandırırdı. Bu əsərlərin əksəriyyətinin oraq mövzusu azadlıq və Qarabağ müharibəsidir. 90-cı illərdə yazlan romanların mövzuları içərisində müharibə və milli vətənpərvərlik, eləcə də 20 yanvar faciəsinin bədii əksi üstünlük təşkil edir. Milli azadlıq və Qarabağ mövzusunun birlikdə işıqlandırılması hər iki problemin eyni zaman kəsiyində tariximizə gəlişi ilə əlaqədardır. Eyni zaman dilimində baş verən hadisələr: sovet qoşunlarının törətdiyi 20 yanvar faciəsi, Ermənistanın zəbt etdiyi torpaqlarımız, xalqımızın azadlıq və müstəqillik yolunda əzmkar mübarizəsi həm müharibə, həm də azadlıq mövzularının paralel işlənməsi ilə nəticələnmişdir.

6) Xalqın tarixinə, mədəniyyətinə, dəyərlərinə müasir dövrün tələbləri müstəvisindən nəzər salmaq, milli mənəviyyatımızı bu aspektdən bədii tədqiq obyektinə çevirmək çağdaş Azərbaycan ədəbiyyatının mühüm vəzifələrindəndir. Xalqın çoxəsrlik mənəvi və əxlaqi keyfiyyətlərini, həyat və məişət tərzini, adət-ənənələrini, yadelli işğalçılara qarşı mübarizəsini, ayrı-ayrı dövrlərdə ədəbi-mədəni yüksəlişini öyrənmək baxımından da tarixi mövzuda yazılan bədii əsərlərin xidmətləri az deyil. Dünya ədəbiyyatının örnəklərindən fərqli olaraq Azərbaycan ədəbiyyatı XXI əsrdə də xalqın milli şüurunu oyatmağa, azadlığa və müstəqilliyə gedən yolda güclü ideya-mənəvi qüvvə rolunu oynayır. Bunun üçün tarixi xatırlatmalar, tarixi dona bürünmə xüsusi əhəmiyyət kəsb edir.

## Nəticə

*Müstəqillik dövründə yazılmış əsərlərdə Azərbaycan tarixinin bir çox qaranlıq səhifələri bədii təcəssümünü tapmışdır. İyirmi illik ədəbi prosesi izlədiyimiz zaman belə qənaətə gəlirik ki, Azərbaycanın milli istiqlal tarixini geniş və ya məhdud epik məcrada təqdim edən sanballı əsərlər bir o qədər də çox deyil. Buna görə istiqlal tarixinin ən şanlı səhifələrini epik planda təqdim edən əsərlərə acgözlüklə yanaşır diqqətimizi ona daha çox ayırmağa çalışdıq.*

*Məlum olduğu kimi, Azərbaycanın yetmiş ildən artıq sovet hakimiyyəti altında yaşaması bir sıra tarixi mövzuların ədəbiyyata gətirilməsinə ciddi qadağalar qoymuşdur. Bu baxımdan Azərbaycan yazıçıları uzun müddət tarixi mövzu ilə bağlı bədii dildə düşüncələrini açıq ifadə edə bilməmişlər. Lakin müstəqillik dövründə ədəbiyyat yenidən Azərbaycan tarixinin yasaqlar qoyulmuş səhifələrini canlandırmaq imkanı əldə etdi.*

**Ədəbiyyat siyahısı:**

1. Axundlu Yavuz . Azərbaycan tarixi romanı: mərhələlər, problemlər: 1930-2000 .- B.: Adiloğlu, 2005.- 550 s.

2. Əlişanoğlu Tehran. Yeni ədəbi nəsil: axtarışlar, problemlər //http://bizimasr.media-az.com/arxiv_2002 /may/ 113/ tengid_romani. html;

3. Rəsulzadə Məmməd Əmin . Azərbaycanda Milli hərəkatı . Bakı: Elm, 2009. 127 s.

4. Şərifova Salidə . Ədəbi prosesə nəzəri baxış: Tənqidi məqalələr 2003-2005-ci illər Bakı: Maarif, 2006.- 210 s.

5. Yusifli Cavanşir. Bədii mətnin sirləri. Bakı: Mütərcim, 2004, 106 s.

**Vafa Huseynzadeh**

**The ideology of independence in fiction of 1991-2011**

Despite the fact that the modern Azerbaijani literature has had a crisis in the 1990s, but it was trying to express its views and highlight its ideas in a society. An indoctrination of the soviet ideological ideas for many years has resulted with falsification of historical realities. During our investigation of modern Azerbaijani liteature we have witnessed that the samples of literary works with their language, style and fable that were published in the periodical press and literary-art magazines in the first decade of independence of our country was serving to one purpose as a whole. However, it is hard to say the same thing about the second decade of our independence. Very few number of the literary works on a theme of independence was written at this stage. Just from this point of view, we can devide conditionally the modern Azerbaijani literature into two stages:

1) The years of the 1990s
2) The years of the 2000s

Inportant and actual topics for the people, the nation and the state are available in the art prose. War in Garabakh, its consequncies and challenges was one of the topics to which the literature, including a story, novel and romance ganre was often applying to in the years of the 2000s. Artistic expression of the historical reality in epic poetry, particulaly an issue of establishment in a new configuration of the ideas of homeland, nation and national statehood in the novels is very important.

***Keywords****: Literature, national independence, story, narrative, novel, history*

**Вафа Гусейнзаде**

**Идеология независимости в художественной литературе 1991-2011-х гг.**

Несмотря на кризис, переживаемый современной азербайджанской литературой в 1990-е годы, она старалась сказать свое слово в обществе, привнести ясность своим мыслям. Влияние советской идеологии, сохранившееся в течение долгих лет, привело к фальсификации исторических реалий. В ходе исследования современной азербайджанской литературы мы стали свидетелями того, что язык, стиль и фабула образцов литературных произведений, опубликованных в периодической печати и литературно-художественных журналах в первом десятилетии независимости нашей страны, служили одной цели, что не скажешь о втором десятилетии нашей независимости. На

этом этапе было написано очень мало литературных работ, посвященных теме независимости. Именно с этой позиции современную литературу Азербайджана условно можно разделить на два этапа:

1) 1990-е гг.
2) 2000-е гг.

В художественной прозе встречаются темы, важные и актуальные для народа, нации и государства . В 2000-е гг. одной из тем, к которой часто обращались в литературе, в том числе в жанрах рассказ, повесть и роман, была Карабахская война и вызванные ею последствия и сложности. Художественное выражение исторических реалий в эпической поэзии, в особенности постановка в новом стиле идей родины, народа и национальной государственности в романах, очень важна.

***Ключевые слова***: *литература, национальная независимость, повесть, повествование, роман, история.*

Filologiya üzrə elmlər doktoru, professor
**Almaz Əliqızı** tərəfindən çapa tövsiyə olunmuşdur.